# *SARI ÇİÇƏK*

***(Sarı çiçəklər önündə həmişə donub qalıram)***

**Qəlbimdə uyuyan ruhun rəngidir,
İçimdə boylanan söz  çələngidir.
Məni hüzuruna sevgi gətirdi,
Solan sevdaların sarı çiçəyi.**

**Əlacsız sevdadır qəlbimdə qalıb,
Sarıtel gözəldir xəyala dalıb.
Sevgisi qürbətdə gözü saralıb,
Solan sevdaların sarı çiçəyi.**

**Bir sarı gəlindi bəxti  dağlanıb,
Bərəsi kəsilib bəndi bağlanıb.
Həsrətin üstünə dərd cilalanıb,
Solan sevdaların sarı çiçəyi.**

**Sevda yolçusuyuq mənzilə yetən,
Sevgisin mələklər göydən gətirən.
İçimdə göyərən, içimdə bitən,
Solan sevdaların sarı çiçəyi.**

***Gülər ELDARQIZI***

Ədalət.-2020.-7mart